BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2014*

UOT 94 (429: 24)

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLILARIN TÜRKİYƏYƏ MİQRASİYASININ SOSİAL-SİYASİ SƏBƏBLƏRİ

**Z.M.ƏSGƏROVA**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***diaspor 2013 @ mail.ru***

*Azərbaycanlıların dünya ölkələrinə miqrasiyasının müxtəlif dövrləri mövcuddur. Azərbaycanın müxtəlif dövrlərdə baş vermiş mühacirət dalğaları öz tərkibi, səbəbi və vaxtı baxımından fərqlidir. XX əsrin əvvəllərində, yəni 1905-ci ildə və 1918-ci ildə bütün Zaqafqaziyada, eləcə də Azərbaycan ərazisində xalqımıza qarşı ermənilərin həyata keçirtdiyi soyqırım siyasəti, 1920-ci ildə ADR-in süqutunun nəticəsində azərbaycanlılar ölkəni tərk etmiş yaşamaq üçün üstünlük verdikləri ölkə Türkiyə olmuşdur.*

*Bütün bu səbəblər Türkiyədə Azərbaycan diasporunun geniş əhatə dairəsinin yaranmasına şərait yaratmışdır.*

*Məqalədə XX əsrin əvvəllərində azərbaycanlıların Türkiyəyə miqrasiyasının sosial-siyasi səbəbləri araşdırılmışdır.*

**Açar sözlər:** vətən tarixi, diaspor, mühacirət

XX əsrin əvvəllərində Rusiya imperiyasında əmələ gələn sosial-siyasi dəyişikliklər, bu hadisələrin Azərbaycanda milli şüurun formalaşmasına təsiri fonunda milli azadlıq hərəkatının, Azərbaycanın müstəmləkə əsarətindən xilas edilməsi üçün milli mübarizəsi və mübarizəni boğmaq üçün çarizmin gördüyü tədbirlər XX yüzilliyin əvvəllərində miqrasiya dalğasının yaranmasına gətirib çıxartdı.

Rus Çar rejimi hər azərbaycanlı ziyalının timsalında özünün düşmənini görürdü. Bu məqsədlə Çar hökuməti Azərbaycanda baş verən inqilabi çıxışları aradan qaldırmaq üçün Azərbaycan-erməni qırğınını təşkil etdi. Bu işdə daşnak partiyasından istifadə olundu.

«Daşnaksütyun» partiyasının rəhbərliyi ilə ermənilər 1905-ci ildən 1918-cı ilə qədər Türkiyədə və indi Ermənistan adlanan ərazilərdəki tarixi torpaqlarımız olan Zəngəzurda (Sisyan), Zəngibasarda (Masis), Ağbabada və başqa ərazilərdə həmçinin Bakı, Naxçıvan, Gəncə, Şamaxı, Quba və başqa bölgələrdə

azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. 1906-cı il yanvarın 1-də Andranikin daşnak silahlı birləşmələri Qarabağın Papravənd kəndini bütövlükdə yandırdılar. Həmin il iyunun 12-də Azərbaycana yaxın kəndlərdən toplanmış 10 min nəfərlik erməni dəstələri Şuşaya hücum etdilər (19).

1905-1917-ci illərdə Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların ilk kütləvi deportasiyası başlandı.

Görkəmli ziyalı Əhməd bəy Ağa oğlu sonralar öz xatirələrində yazırdı: «Qafqazda yaşayan xalqları hər zaman bir-biri ilə vuruşduraraq, sönməyən, ocağa başlarını qatıb, azadlıq mübarizəsindən çəkindirməyin ən asan yol olduğunu dəfələrlə təcrübədən keçirdikləri üçün yüksələn milli azadlıq hərəkatını boğmağın çarəsini erməni-Azərbaycan qırğınında görürdülər» (4.23).

Azərbaycanlılara qarşı hər cür alçaqlıqdan çəkinməyən Daşnaksütyun təşkilatına qarşı 1905-ci ilin sonlarında Əhməd bəy Ağa oğlunun başçılıq etdiyi «Difai» (Müdafiə təşkilatı) adlı bir təşkilat yarandı (2.34). Bu təşkilat az bir zamanda vərəqlərdə azərbaycanlıların haqq və hüquqlarını müdafiə edən yazıları bir çox səfirliklərə göndərir, təşkilatın üzvləri yığıncaqlarda, konfranslarda çıxış edərək erməni əks təbliğatına qarşı çıxırdılar.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında çox böyük və mühüm rol oynayan partiya «Müsavat» partiyası olmuşdur. Partiya 1911-1912-ci illərdə «Hümmət» təşkilatından ayrılan milli qrup tərəfindən yaradılmışdı (9).

1905-ci ildən sonra «Hümmət» kimi inqilabi cəmiyyətdə təcrübə qazanmış olan gənc ziyalılar Balkan müharibəsi (1912-1913) zamanı güclənən rus şovinizmi nəticəsində, Azərbaycanda Türkiyəyə çox böyük milli rəğbətin yaranması təsirindən gizli bir siyasi cəmiyyət yaradıldı. Bu cəmiyyət Rusiyada yaşayan türk xalqlarının həyatın bütün sahələrində ruslarla bərabər hüquqlu görmək istəyi, türk-islam aləmini hürriyyətə qovuşdurmaq arzusuyla yaranmışdı.

Çar Rusiyası Azərbaycanda yaranan bu təşkilatların və onların yaradıcıları olan xalqın qabaqcıl ziyalılarını daim təqib altında saxlayırdı. Odur ki, imperiya qabaqcıl fikirli ziyalıları yox etmək, didərgin salmaqla hakimlik ömrünün istila dövrünü bacardıqca uzatmaq istəyirdi.

1906-cı ildə rus irticasının təzyiqi ilə Azərbaycanın qabaqcıl ziyalılarından olan «Müsavat» partiyasının yaradıcısı Məmməd Əmin Rəsulzadə İrana mühacirətə getmiş, oradan isə Türkiyəyə gedir. Doğma torpaqdan, vətəndən uzaqda qalmağa məcbur olur və daima Bakıdakı məslək yoldaşları ilə əlaqə saxlayır.

1908-ci ildə Əhmədbəy Ağaoğlu, 1909-cu ildə isə Əlibəy Hüseynzadə vətəni tərk edib Türkiyəyə getməyə məcbur olurlar (5, 28).

Müsəlman xalqlarını Dövlət Dumasında təmsil edən millət vəkilləri əsrlərlə davam edən zülm və işgəncəyə qarşı çıxır, öz haqq və hüquqlarının

bərpasını tələb edirdilər. Şübhəsiz ki, Qafqazı təmsil edən millət vəkillərinin mübariz ruhu, döyüşkənliyi İsmayıl bəyin, Əli bəy Hüseynzadənin, Mirzə Bala Məmmədzadənin, Əhməd Ağa oğlunun, Məmməd Əmin Rəsulzadənin və onlar kimi mühacirətə getməyə məcbur edilmiş ziyalı nəslinin gərgin əməyinin nəticəsi, sağlam milli oyanış hərəkatının qələbəsi idi.

XX əsrin əvvəllərində Azərbaycan mühacirləri Türkiyədə cəmlənmişdi. Azərbaycan ziyalılarının Türkiyəyə mühacirət etməsinin əsas səbəbi 1905-ci il inqilabından sonra 1907-ci il irticasının təqibi oldu. Türkiyəyə mühacirət etmiş bu mühacirətin başında Əhməd bəy Ağa oğlu, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspirinski kimi ziyalı şəxsiyyətlər dururdu.

Təqiblərə məruz qalmış Əhməd bəy Ağa oğlu 1908-ci ildə vətəni tərk edib İstanbula getmiş, məktəb müfəttişi kimi işə başlamışdır. Sonralar Türkiyənin siyasi həyatında çox mühüm rol oynayan «Tərcümani həqiqət» qəzetinin baş redaktoru vəzifəsində çalışan Əhməd bəy həm də 1909-cu ildən İstanbul Universitetinin professoru olur. Əhməd bəy Ziyalı, Məmməd Əmin (Yurdaqul), Yusif Akçura, Əli bəy Hüseynzadə, İsmayıl Qaspirinski kimi dövrün tanınmış şəxsiyyətləri ilə bərabər «Türkçülük» və «Milliyyətçilik» cərəyanlarının önündə gedənlərdən olur. Həmçinin bu illərdə azərbaycanlı mühacirləri «Türk dərnəyi», «Türk yurdu», «Türk ocağı» cəmiyyətlərinin, «İttihad və tərəqqi» partiyasının quruculuğunda fəal iştirak etmiş, Türkiyənin siyasi həyatında çox mühüm rol oynayan görkəmli şəxsiyyətlər olmuşdur. Bu görkəmli Azərbaycan ziyalılarının Əli bəy Hüseynzadə, Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağaoğlu, Yusif Akçura, İsmayıl bəy Qaspirinski, Fuadbəy Köprülüzadə, Həbib Asim bəy, Vələd Çələbi Əfəndi və başqa onlarca ziyalının qurduğu cəmiyyət türkçülük və türk millətini yüksəltmək yolunda çox böyük xidmətlər göstərmişdir (11, 189).

Türkiyədə Azərbaycanın qurtuluşu, rus əsarətindən xilası üçün fəaliyyət göstərən mühacirlərimiz 1915-ci ildə Şimali Qafqaz, Azərbaycan və gürcüstanlılardan ibarət «Qafqaz komitəsi» yaratmışdılar (8, 161).

«Qafqaz komitəsi» Bakı və Qafqazdakı milli təşkilatlarla əlaqə yarada bilmişdi. «Qafqaz komitəsi»nin fəaliyyəti nəticəsində Türkiyə ordusuna Qafqazdan xüsusilə Azərbaycandan çoxlu könüllülər axışmağa başladı. Könüllülərinsə böyük bir qismi ziyalı Azərbaycan gəncləri idi (8, 161).

Azərbaycan mühacirlərinin 1917-ci ilə kimi dövrü Azərbaycanda türkçülüyün və qabaqcıl ictimai-siyasi fikrin yayılması baxımından çox böyük rol oynamış, sonrakı dövrü 1917-ci ildən sonra təşkilatlanmış, siyasi mühacirət təşəkkül tapmışdı.

1917-ci ilin fevral ayında Çar Rusiyasında baş vermiş inqilab Azərbaycanın sosial-siyasi həyatında böyük dəyişikliyə səbəb oldu. 1918-ci il mayın 28-də xalqımızın tarixində bütöv bir mərhələni təşkil edən Azərbaycan Demokratik Cümhuriyyəti yarandı (10, 8).

1917-ci ildə Rusiyada baş vermiş fevral inqilabı imperiya tərəfindən məhkum olunmuş xalqlara müstəqillik əldə etməsi üçün imkan yaratdı.

1918-ci il mayın 28-də Tiflis şəhərində dörd müsəlman partiyasının iştirakı ilə iclas keçirilir. Həmin iclasda gizli səsvermə yolu ilə 22 səs çoxluğu ilə Məmməd Əmin Rəsulzadə Azərbaycan milli şurasının başçısı seçilir (10, 79).

Azərbaycan hökuməti özünün istiqlal bəyannaməsini bütün xalqa və dünyaya elan edir.

Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasında «Musavat» partiyasının əvəzsiz rolu olmuşdur.

İyirmi üç ay hakimiyyət dövrü sürən Milli hökumət 1920-ci il aprelin 27-də Sovet rus qoşunları tərəfindən işğal edildi. ADR-nın, «Musavat» partiyasının görkəmli xadimlərinin çoxu həbs edilərək, edam olundu, digərləri isə mühacirətə getməyə məcbur oldular. Bu işğal nəticəsində Azərbaycan diasporunun formalaşmasında ciddi dönüş baş verdi. Nəticədə milli liderlər təqibdən yaxa qurtarmaq üçün İrana, Türkiyəyə, Avropaya mühacirət etməli oldular. Azərbaycan diasporunun nümayəndələrinin yaşamaq üçün üstünlük verdiyi ölkə Türkiyə oldu.

Onu da qeyd edək ki, Türkiyəyə təkcə «Musavat» partiyasının və Azərbaycan Demokratik Cumhuriyyətinin rəhbərləri deyil, digər vətəndaşları da mühacirət etməyə məcbur olmuşlar.

Belə ki, 1918-ci ilin mart-aprel aylarında S.Şaumyanın Bakı Sovetinə rəhbərlik etdiyi qısa zamanda ermənilər Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda 50 mindən artıq azərbaycanlını qətlə yetirmişlər (9, 4).

Qədim Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan bölgələrində, Qarabağın dağlıq hissələrində daşnak Andranikin quldur dəstəsi yer üzünün misli görünməmiş dəhşətlərini törətmişdir.

Bu bölgələrin əhalisinin əksəriyyəti erməni quldurlarının əlindən canlarını qurtarmaq ümüdiylə qonşu ölkəyə - Türkiyəyə köçmüşlər və burada yaşamağa məcbur olmuşlar.

Əlimizdə olan təxmini məlumatlara əsasən XX əsrin əvvəlindən 1920-ci illərə kimi ermənilərin türklərə qarşı törətdikləri cinayətlər üzündən bir milyona yaxın azərbaycanlı yerini-yurdunu, elini-obasını, varını-yoxunu ataraq Türkiyəyə köçmək məcburiyyətində qalmışlar. Əsasən Qars, İqdır, Ərzurum vilayətlərində məskunlaşmış azərbaycanlı həmyerlilərimiz indi də toplu halda bölgələrdə yaşamaqdadırlar (5, 90).

Azərbaycan diaspor nümayəndələrinin Türkiyəyə axışmasının bir neçə səbəbi var idi. Coğrafi cəhətdən Azərbaycana qonşu olan bu dövlət eyni kökə bağlılıq, dil və ünsiyyət baxımından azərbaycanlıların yaşaması üçün çox əlverişli idi.

1920-ci il aprelin 28-də yaranmış Azərbaycan Sovet hakimiyyəti ilə barışmayan insanlar: bunlar əmlakları əllərindən alınmış mülkədarlar, ticarət və sənaye burjuaları, milli ordu mənsubları, nazir, parlament üzvü, yüksək dövlət

məmurları, siyasi partiya üzvləri, ziyalı və milliyyətçilər yaşamaq üçün Türkiyəni özlərinə ikinci vətən seçdilər.

Kollektivləşməyə qarşı edilən qanlı üsyanlar minlərlə kəndli təbəqəsinin və onlarla birlikdə «Müsavat partiyası üzvlərinin Türkiyəyə mühacirət etməsinə səbəb olmuşdur.

1928-ci ildə erməni silahlı qüvvələri tərəfindən Bakı quberniyasında 229 yaşayış məntəqəsi (Şamaxı qəzasında 58, Quba qəzasında 122), Gəncə quberniyasında 272 yaşayış məntəqəsi (Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211 (İrəvan qəzasında 32, Yeni Bəyaziddə 7, Sürmılidə 75), Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə əhali qırılmış və öz etnik ərazilərindən qaçqın düşmüşdü (5, 94).

1920-ci il aprelin 27-də Azərbaycan ərazisi bolşeviklər tərəfindən işğal edilmiş, ölkədə sərt sovet rejimi qurulmuşdur. Bu rejimə qarşı çıxan, milli müstəqilliyimizi müdafiə edən minlərlə həmvətənimiz məhv edilmiş, Uzaq Sibir və Qazaxıstana sürgün olunmuş, bir qismi isə canlarını xilas etmək üçün digər ölkələrə mühacirət etmişlər. Bu mühacirlərin əsasını sabiq mülkədarlar, sənaye və ticarət burjuaziyası, milli ordunun əsgər və zabitləri, yüksək dövlət məmurları, siyasi partiya üzvləri, müstəqil əqidəyə malik ziyalılar təşkil edirdi.

Beləliklə, XX əsrin əvvəllərində, yəni 1905-ci ildə Azərbaycan ərazisində xalqımıza qarşı ermənilərin həyata keçirtdiyi soyqırım siyasəti, 1920-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin süqutu nəticəsində azərbaycanlıların öz vətənindən didərgin düşüb dünya ölkələrinə səpələnməsinə, o cümlədən Türkiyədə məskunlaşmasına səbəb olmuşdur. Bütün bu səbəblər Türkiyədə Azərbaycan diasporunun geniş əhatə dairəsinin yaranmasına şərait yaratdı.

### ƏDƏBİYYAT

1. Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı: 2012, 654 s.
2. Abid Tahirli. Azərbaycan mühacirəti. Bakı: Tural, 2001, 277 s.
3. Abid Tahirli. Azərbaycan mühacirət mətbuatı. (II hissə), Bakı: Ozan, 2003, 273 s.
4. Ağaoğlu S. Babamdan xatirələr. Ankara: 1940, 203 s.
5. Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı: Bilik, 1992, 633 s.
6. Həsənova Ş. Mühacirət irsimizdən səhifələr. Bakı: Maarif, 1995, 152 s.
7. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm, 1996, 229 s.
8. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 192 s.
9. Nəsiman Yaqublu. M.Ə.Rəsulzadə. Bakı: Gənclik, 1991, 298 s.
10. Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, 94 s.
11. Yusif Akçura. Yeni türk dövlətinin öncülləri. Ankara: 1981, 189 s.
12. "Azad Azərbaycan" qəzeti. 2007, 17 noyabr
13. Elçin. Azərbaycan mühacirəti haqqında. "Odlar yurdu" qəzeti, noyabr, 1991.

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ПРИЧИНЫ ЭМИГРАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ В ТУРЦИЮ К НАЧАЛУ XX ВЕКА

**З.М.АСКЕРОВА**

**РЕЗЮМЕ**

Существуют разные периоды миграции азербайджанцев в страны мира. Миграционные волны Азербайджана, возникшие в разные периоды, отличаются по своему составу, причине и времени. В началах XX века, т.е. в 1915 и 1918 годах во всём Закавказье, в том числе и на территории Азербайджана, по причине политики геноцида, проводимые армянами и свержения в 1920 году АДР, многие азербайджанцы покинули свою страну для жительства выбрали Турцию.

Все эти причины создали предусловие для создания широкой Азербайджанской диаспоры в Турции.

В этой статье проанализированы социально-политические причины турецкой миграции азербайджанцев в началах XX века.

**Ключевые слова:** история страны, диаспора, миграция

## THE SOCIAL AND POLITICAL CAUSES FOR THE AZERBAIJANIS' MIGRATION TO TURKEY AT THE BEGINNING OF THE XX CENTURY

**Z.M.ASGAROVA**

**SUMMARY**

There are different periods of the Azerbaijanis' migration to other countries of the world. Waves of Azerbaijanis' migration that occurred at different periods are various for their content, causes and in terms of time. As a result of the Armenian genocide against our people and the collapse of the GDR in 1920, at the beginning of the XX century, namely in 1905 and 1918, in Transcaucasia, as well as in the territory of Azerbaijan Azerbaijanis began to leave the country and Turkey was the country they preferred to live in. All these reasons contributed to the formation of the wide-scope Azerbaijani Diaspora in Turkey. In the article were researched the social and political causes of Azerbaijanis' migration to Turkey in the early XX century.

**Key words:** native history, diaspore, migration.